**Ümumi təhsil müəssisələrinin IV siniflərində monitorinqin keçirilməsi barədə sual-cavab**

1. **Monitorinq hansı məqsədlə həyata keçirilir?**

   *- Şagird nailiyyətlərinin yaxşılaşdırılması, IV sinfin sonunda şagirdlərdə müvafiq standartlar üzrə bilik və bacarıqların hansı səviyyədə formalaşdığının müəyyən edilməsi və ibtidai təhsil səviyyəsində keyfiyyətin artırılması istiqamətində tədbirlərin görülməsi monitorinqin əsas məqsədlərindəndir.*

2. **Monitorinq yalnız IV siniflərdə keçiriləcək?**
   - ***Bəli**, monitorinq **bütün dövlət ümumi təhsil müəssisələrinin IV siniflərində** keçiriləcək.*

3. ***Bəs özəl ümumi təhsil müəssisələrində monitorinq keçiriləcək?***
   - Özəl ümumi təhsil müəssisələri Elm və Təhsil Nazirliyinə müraciət edərək prosesdə iştirak edə bilərlər.

4. **Monitorinq hansı tarixdə keçiriləcək?**
   - *Monitorinq **2023-cü il 10 iyun** tarixində keçiriləcək.*

5. **Monitorinq harada keçiriləcək?**
   - *Monitorinq rayon (şəhər) üzrə  mərkəz kimi müəyyən edilmiş ümumi təhsil müəssisələrində keçiriləcək.*

6. **Əgər aşağı qiymət alsam, sinif jurnalına yazılacaq?**
   - ***Xeyr**, monitorinqin nəticələri şagirdin **məktəbdaxili qiymətləndirməsinin nəticələrinə və sinifdən sinfə keçmələrinə təsir göstərmir** və bu barədə məktəb sənədlərində **qeyd aparılmır.***

7. **Monitorinq hansı fənlərdən keçiriləcək?**
   - *Tədris dili və riyaziyyat fənlərindən*

8. **Suallar çətindir?**
   - ***Xeyr**. Tapşırıqlar tədris dili fənnindən oxu və dil qaydaları məzmun xətlərini, riyaziyyat fənnindən isə ədədlər və əməllər, cəbr və funksiyalar, həndəsə, ölçmə, statistika və ehtimal məzmun xətlərini əhatə edəcək.*

9. **Monitorinqdə açıq tipli testlər istifadə ediləcək?**
   - *Monitorinq prosesində şagirdlərə tədris dili üzrə 30 qapalı sual, riyaziyyat fənni üzrə isə 27 qapalı və 3 açıq qapalı sual təqdim olunacaq.*

10. **Monitorinqdə ən çox neçə bal toplamaq mümkündür?**
    - *Hər düzgün cavab bir balla qiymətləndirilir və maksimal bal 60-dır.*

11. **Səhvlər düz cavablardan toplanılan ballara təsir edir?**

***Xeyr,*** *səhv cavablar düz cavablara təsir göstərmir.*

**12. Monitorinqin keçirilməsi üçün neçə saat nəzərdə tutulub?**

- *Monitorinq 2 saat (120 dəqiqə) ərzində keçiriləcək.*

**13. Monitorinqdə iştirak ödənişlidir?**

- ***Xeyr,*** *monitorinqdə iştirak üçün* ***ödəniş yoxdur.***

**14. Sual kitabçalarını təhvil verməliyik?**

- ***Xeyr,*** *müvafiq vaxtdan sonra şagirdlər* ***sual kitabçaları****nı özləri ilə* ***apara bilərlər****.* ***Cavab kağızları*** *isə mütləq sinif nəzarətçisinə* ***təhvil verilməlidir.***

***15. Monitorinqdə iştirak etməyə bilərəm?***

- *Ümumi təhsil müəssisələrində IV siniflər üzrə bütün təhsilalanların monitorinqdə iştirakı icbaridir.*

*Yalnız üzrlü səbəblər (xəstəlik (tibbi arayış təqdim edildikdə), bədbəxt və fövqəladə hadisə) olduğu təqdirdə təhsilalanlar monitorinqdə iştirak etməyə bilərlər.*